*Peşə təhsili və insan kapitalı. Cild 9, №2, 2026, s.109-112*

# REGİONAL PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ MEXANİZMLƏRİ VƏ TƏDRİSİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ: GÖYGÖL PEŞƏ MƏKTƏBİ TƏCRÜBƏSİ



**Kəmalə Nəhmədova,**
*Göygöl Peşə Məktəbinin direktoru*
*e-mail: kama78759@gmail.com*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3056*

*Müasir dünya iqtisadiyyatında baş verən sürətli dəyişikliklər, istehsalatda yeni texnologiyaların yayılması və məşğulluq sahəsində tələblərin dəyişməsi peşə-ixtisas təhsili qarşısında yeni çağırışlar qoyur. Peşə məktəblərinin əsas missiyası yalnız nəzəri biliklərin ötürülməsindən ibarət deyil, həm də məzunların faktiki iş mühitinə uyğunlaşma bacarıqlarının formalaşdırılmasıdır. Bu səbəbdən tədris və rəhbərlik proseslərinin yeni metodlarla təşkili keyfiyyətli kadr hazırlığının təməl şərtlərindəndir. Peşə təhsilinin səmərəliliyi məktəb rəhbərliyinin seçdiyi idarəçilik strategiyasından, müəllimlərin ixtisas hazırlığından, istifadə olunan dərs vəsaitlərinin müasirliyindən və texniki bazanın durumundan bilavasitə asılıdır.*

*Son illər Azərbaycanda peşə təhsili sahəsində bəzi islahatlar həyata keçirilsə də, bölgələrdə fəaliyyət göstərən peşə təhsili müəssisələrində bir sıra çətinliklər hələ də öz aktuallığını qoruyur. Məqalədə həmin maneələrin aradan qaldırılması məqsədi ilə müasir idarəetmə mexanizmlərinin və tədris metodlarının peşə təhsilinə inteqrasiya imkanları araşdırılır. Tədqiqatın əsas istiqaməti peşə məktəblərində təhsil prosesinin təşkili və nəzarət mexanizmləridir. Məqalədə Göygöl Peşə Məktəbi təcrübəsi əsas götürülərək regional peşə təhsili müəssisələrində yeni yanaşmaların tətbiqi perspektivləri dəyərləndirilir.*

Qlobal iqtisadiyyatın rəqəmsal transformasiyası, istehsal sahəsində innovativ texnologiyaların sürətlə yayılması və əmək bazarının çevik tələbləri peşə təhsili qarşısında duran başlıca problemləri müəyyənləşdirir. Sənaye 4.0 (Dördüncü Sənaye İnqilabı) adlandırılan dövrdə istehsal proseslərinin rəqəmsallaşdırılması, süni intellektin tətbiqi, robotlaşdırma və avtomatlaşdırma sistemlərinin genişləndirilməsi işçi qüvvəsindən tələb olunan bacarıqların keyfiyyətcə dəyişməsinə səbəb olmuşdur. Artıq sadə əməliyyatları yerinə yetirən işçilərə deyil, mürəkkəb texnoloji prosesləri idarə edə bilən, analitik düşüncəyə malik, rəqəmsal alətlərdən səmərəli istifadə edən, həmçinin daimi öyrənməyə hazır olan kadrlara ehtiyac artmışdır. Belə şəraitdə peşə məktəblərinin ənənəvi təlim modellərindən imtina edərək müasir tələblərə cavab verən yeni yanaşmalara keçidi zərurətə çevirmişdir. Peşə təhsili müəssisələrinin qarşısında duran əsas missiya yalnız nəzəri biliklərin ötürülməsindən ibarət deyil, həm də məzunların faktiki iş mühitinə uyğunlaşma bacarıqlarının formalaşdırılması, onların əmək bazarında rəqabət qabiliyyətinin təmin edilməsidir. Bu səbəbdən də həmin peşə təhsili müəssisələrində tədris prosesinin yeni metodlar əsasında təşkili keyfiyyətli təhsil almış kadrların hazırlanmasının təməl şərtlərindən birinə çevrilmişdir.

Peşə təhsilində keyfiyyətin təmin edilməsi dörd əsas amillə – təhsil müəssisəsi rəhbərliyinin strategiyası, pedaqoji heyətin peşəkarlıq səviyyəsi, tədris materiallarının müasirliyi və təlim-tədris bazasının vəziyyəti ilə şərtlənir. Bu dörd amil bir-biri ilə sıx əlaqədə fəaliyyət göstərir və onlardan hər hansı birinin zəif olması bütün sistemin effektivliyini aşağı salır. Məsələn, müasir avadanlıqlarla təchiz edilmiş bir emalatxana belə həmin avadanlıqdan istifadə etməyi bacaran müəllim olmadıqda və ya tədris proqramı əmək bazarının tələblərinə uyğun qurulmadıqda gözlənilən nəticəni verməyəcəkdir.

Son illərdə dövlət səviyyəsində peşə təhsilinin inkişafına dair müəyyən addımlar atılmış, bəzi normativ-hüquqi aktlar qəbul edilmiş və pilot layihələr həyata keçirilmişdir. Lakin bütün bunlara baxmayaraq, ölkənin bölgələrində fəaliyyət göstərən peşə təhsili müəssisələri hələ də bir sıra struktur, texniki və metodiki problemlərlə üzləşməkdədir. Bu çətinliklər sırasına maddi-texniki bazanın köhnəlməsi, müəllim heyətinin yaş strukturunun qeyri-optimal olması, işəgötürənlərlə əlaqələrin zəifliyi, tələbələrin təhsilə motivasiyasının aşağı olması, peşə təhsilinə cəmiyyət baxışının arzuolunan səviyyədə olmaması və regionlarda ixtisaslaşmış kadrların çatışmazlığı kimi məsələlər daxildir. Bu maneələrin aradan qaldırılması birbaşa idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və tədris metodlarının müasirləşdirilməsi ilə bağlıdır. Həmin amillərin sistemli təhlili göstərir ki, keyfiyyətli təhsil prosesi təsadüfi deyil, məqsədyönlü planlaşdırma, ardıcıl icra, sistemli monitorinq və vaxtında korreksiya tədbirlərinin nəticəsidir. Bu baxımdan idarəetmənin keyfiyyəti mərkəzi əhəmiyyət daşıyır. Müasir idarəetmə nəzəriyyəsində vurğulandığı kimi, təhsil müəssisələrinin rəhbərləri artıq sadəcə inzibatçı deyil, eyni zamanda strateji planlaşdırıcı, dəyişiklik agenti, resursların səmərəli bölüşdürücüsü və komanda quruculuğunun təşkilatçısı rolunu oynamalıdır. Ənənəvi yuxarıdan-aşağı əmr idarəetməsi modeli əvəzinə iştirakçı idarəetmə modeli – yəni qərarların hazırlanması və qəbulu prosesinə ixtisas fənn müəllimlərinin, istehsalat təlimi ustalarının, texniki işçilərin, hətta tələbələrin də cəlb edildiyi sistem daha səmərəli nəticələr verir. Belə bir sistemdə hər bir iştirakçı öz fikrinin dəyərləndirildiyini hiss edir, bu da onun motivasiyasını və məsuliyyət hissini artırır. Göygöl Peşə Məktəbində tətbiq edilən idarəetmə təcrübəsi, məhz bu prinsiplərə əsaslanır. Məktəb rəhbərliyi tərəfindən aylıq planlaşdırma iclasları, pedaqoji şuralar, yarımillik və illik qiymətləndirmələr nəzərə alınır, burada bütün işçilərin təklif və tövsiyələri dinlənilir. Nəticədə məktəbdə həm işçilər, həm də tələbələr arasında güclü bir “biz” hissi formalaşmış, qərarların icrası sürətlənmiş və innovasiyalara açıqlıq artmışdır.

İdarəetmənin digər vacib aspekti tədris-texniki bazanın və digər resursların səmərəli idarə edilməsidir. Göygöl Peşə Məktəbində bu sahədə atılan addımlar diqqətəlayiqdir. Belə ki, məktəbdə elektron resurs idarəetmə sistemi tətbiq edilmişdir ki, bu sistem vasitəsilə hər bir avadanlığın, materialın, alətin və cihazın harada, nə vaxt, kim tərəfindən və hansı məqsədlə istifadə edildiyi real vaxt rejimində izlənilir. Bu, həm resursların tələf olmasının israfı qarşısını alır, həm də təlim prosesinin fasiləsizliyini təmin edir. Bundan əlavə, məktəb yerli sənaye müəssisələri, xüsusilə Göygöl rayonunda fəaliyyət göstərən kənd təsərrüfatı, tikinti və xidmət sektoru müəssisələri ilə strateji əməkdaşlıq münasibətləri qurmuşdur. Bu əməkdaşlıq çərçivəsində tələbələrin istehsalat təcrübəsini öz bazalarında təşkil edirlər. Bunun müqabilində məktəb həmin müəssisələrin ehtiyac duyduğu ixtisaslar üzrə kadr hazırlığını həyata keçirir, təcrübə müddətində tələbələrin işəgötürənin tələblərinə uyğun formalaşmasını təmin edir. Bu cür qarşılıqlı faydalı əməkdaşlıq modeli resurs çatışmazlığı problemini əhəmiyyətli dərəcədə yüngülləşdirmiş, eyni zamanda təhsil proqramlarının əmək bazarının real tələblərinə uyğunlaşdırılmasına imkan yaratmışdır.

Tədris prosesinin keyfiyyətinin yüksəldilməsində ən mühüm amillərdən biri də tədris metodlarının müasirləşdirilməsidir. Ənənəvi mühazirə və izah üsulları, xüsusilə peşə təhsili kimi praktiki bacarıqların ön planda olduğu bir sahədə tələbələrin passiv dinləyici mövqeyində qalmasına səbəb olur. Göygöl Peşə Məktəbində bu problemdən çıxış yolu kimi aktiv təlim metodlarına – layihəəsaslı təlim, probleməsaslı təlim, simulyasiya, rol oyunları və iş yeri əsaslı təlimə üstünlük verilir.

***Layihəəsaslı təlim*** metodunda tələbələr kiçik qruplara bölünərək, real həyatdan götürülmüş bir peşə problemini həll etmək üçün layihə hazırlayır

və təqdim edirlər. Məsələn, "turizm sahəsində iaşə üzrə mütəxəssis" ixtisası üzrə təhsil alan tələbələrə regionda keçiriləcək bir bayram tədbiri üçün menyu hazırlamaq, qida məhsullarının alışını planlaşdırmaq, büdcə tərtib etmək, müxtəlif yemək və şirniyyatlar hazırlayaraq təqdim etmək tapşırılır. Bu proses tələbələrin təkcə peşə bacarıqlarını deyil, həm də komanda işi, vaxtın idarə edilməsi, büdcələşdirmə, ünsiyyət və problemi həlletmə kimi yumşaq bacarıqlarını inkişaf etdirir. Probleməsaslı təlimdə isə tələbələrə əvvəlcədən hazır bilik verilmir, əksinə, onlara real bir problem təqdim edilir və həmin problemi həll etmək üçün lazım olan bilikləri özləri axtarıb tapmaları, təhlil və tətbiq etmələri tələb olunur. Bu metod tələbələrin tənqidi düşüncə qabiliyyətini, informasiya savadlılığını və müstəqil öyrənmə bacarıqlarını gücləndirir. Göygöl Peşə Məktəbində, xüsusilə "kənd təsərrüfatı" ixtisasları üzrə bu metoddan geniş istifadə edilir. Belə ki, tələbələrə nasaz traktor mühərriki, suvarma sistemindəki problem və ya bitki xəstəliyi kimi real problemlər verilir və onların həlli yollarını tapmaq tələb olunur.

Peşə təhsilinin keyfiyyətinin yüksəldilməsində işəgötürənlərlə əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Göygöl Peşə Məktəbi bu sahədə xüsusilə uğurlu təcrübəyə malikdir. Məktəb rayon ərazisində fəaliyyət göstərən 40-dan çox müəssisə ilə birbaşa əməkdaşlıq müqaviləsi imzalamışdır. Bu müqavilələr çərçivəsində tələbələrin istehsalat təcrübəsi, məhz həmin müəssisələrdə təşkil edilir. Sözügedən tərəfdaşlıqlar sırasında Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi, "Göygöl Şərab Zavodu" ASC, Göygöl Gənclər Evi, Dövlət Aqrar İnkişaf Mərkəzi (DAİM) və Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu kimi nüfuzlu qurumlar yer alır. Bu genişmiqyaslı əməkdaşlıq platforması tələbələrin nəzəri biliklərini real iş mühitində tətbiq etmələrinə şərait yaratmaqla yanaşı, həm də onların gələcəkdə peşəkar kadr kimi formalaşmasında və məzun olduqdan sonra asanlıqla işlə təmin olunmasında müstəsna rol oynayır. Lakin əməkdaşlıq bununla məhdudlaşmır, işəgötürən nümayəndələr məktəbin tədris-metodika şurasında iştirak edirlər. Hər il keçirilən birgə konfranslarda işəgötürənlər öz tələblərini, gözləntilərini, gördükləri çatışmazlıqları və təkliflərini birbaşa məktəb rəhbərliyinə və müəllimlərə çatdırırlar. Bu mühüm dialoqun bariz nümunəsi kimi, məktəbin təşkilatçılığı ilə keçirilən ***"Peşədəsən"*** adlı forumu, xüsusilə qeyd etmək olar.

Sözügedən forumda Göygöl Rayon İcra Hakimiyyətinin, eləcə də Dövlət Məşğulluq Agentliyinin yerli nümayəndələrinin iştirakı tədbirin əhəmiyyətini daha da artırmışdır. Bu formatda keçirilən görüşlər dövlət qurumları, işəgötürənlər və təhsil müəssisəsi arasında sıx əməkdaşlıq platforması yaradaraq, təhsil proqramlarının birbaşa əmək bazarının müasir tələblərinə uyğunlaşdırılmasına xidmət edir. Bu geribildirimlər əsasında tədris proqramlarına düzəlişlər edilir, lazım gəldikdə yeni ixtisaslar açılır, köhnəlmiş ixtisaslar bağlanır, avadanlıq və materialların seçilməsi zamanı işəgötürənlərin tövsiyələri nəzərə alınır. Son 3 ildə məktəbin "dual təhsil" sisteminə keçid istiqamətində də addımlar atılmışdır. Bir sıra ixtisaslar üzrə tələbələrin təlim vaxtının təxminən 40%-i müəssisələrdə keçir, tələbələr təhsil aldıqları müddətdə müəssisələrin iş proseslərinə inteqrasiya olunaraq real iş təcrübəsi qazanırlar. Bu model həm tələbələrin məzun olduqdan sonra işlə təmin olunma şansını əhəmiyyətli dərəcədə artırır, həm də işəgötürənlərə öz gələcək kadrlarını erkən mərhələdən formalaşdırmaq imkanı verir. Statistik göstəricilər də bu yanaşmanın uğurunu təsdiq edir. Son üç ildə Göygöl Peşə Məktəbinin məzunlarının böyük əksəriyyəti ixtisası üzrə işlə təmin olunmuş və ya öz biznesini açmışdır. Region üzrə orta göstərici ilə müqayisədə bu, kifayət qədər yüksək nəticədir.

Tədris prosesinin keyfiyyətini yüksəldən digər mühüm amil qiymətləndirmə sistemidir. Ənənəvi yekun imtahan sistemi tələbələrin bilik və bacarıqlarının tam və obyektiv qiymətləndirilməsi üçün kifayət deyil. Göygöl Peşə Məktəbində təlim nəticələri üzrə aralıq qiymətləndirmənin balanslaşdırılmış şəkildə tətbiqi həyata keçirilir. Aralıq qiymətləndirmə təlim prosesi ərzində davamlı olaraq aparılır – qısa testlər, gündəlik müşahidələr, praktiki tapşırıqların nəticələri, özünüqiymətləndirmə vərəqləri və qarşılıqlı qiymətləndirmə formaları vasitəsilə tələbələrin güclü və zəif tərəfləri vaxtında aşkarlanır, onlara vaxtında geribildirim verilir, təlim strategiyaları düzəldilir. Yekun qiymətləndirmə isə modulun və ya təhsil proqramının sonunda şifahi imtahan, praktiki imtahan, buraxılış işi formasında həyata keçirilir. Bu iki qiymətləndirmə növünün birlikdə tətbiqi tələbələrin təkcə nəzəri biliklərinin deyil, həm də

praktiki bacarıqlarının, tənqidi düşüncəsinin, yaradıcılıq qabiliyyətinin və peşə etikasının qiymətləndirilməsinə imkan yaradır.

Nəhayət, keyfiyyətli təhsil prosesinin təmin edilməsində təhsil mühitinin rolu danılmazdır. Təhsil mühiti dedikdə, təkcə məktəbin fiziki infrastrukturu – təmiz, işıqlı, təhlükəsiz sinif otaqları, müasir laboratoriyalar, yaxşı təchiz edilmiş emalatxanalar, kompüter sinifləri, kitabxana, idman zalı, yeməkxana və istirahət zonaları deyil, həm də psixoloji iqlim, tələbələr arasında, tələbələrlə müəllimlər arasında, müəllimlərlə rəhbərlik arasında münasibətlərin keyfiyyəti, təhsil müəssisəsində hökm sürən dəyərlər, normalar, inanclar və davranış qaydaları nəzərdə tutulur. Göygöl Peşə Məktəbində təhlükəsiz, inklüziv, dəstəkləyici və stimullaşdırıcı bir mühitin yaradılmasına xüsusi diqqət yetirilir. Məktəbdə mənəvi-psixoloji mühitin sağlamlaşdırılması məqsədi ilə zorakılıq, diskriminasiya və laqeydlik kimi mənfi hallara qarşı “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa və müəllimlərin etik davranış qaydalarına əsaslanan Etik Davranış Kodeksi qətiyyətlə tətbiq olunur. Təhsilalanların hərtərəfli mühafizəsini təmin etmək üçün bulinq, erkən nikah və narkomaniyaya qarşı mübarizə, gender bərabərliyi, dini radikalizm və s. kimi aktual sosial problemlərə qarşı mütəmadi maarifləndirici tədbirlər və preventiv layihələr həyata keçirilir. Eyni zamanda yarana biləcək hər hansı gərginliyin vaxtında aradan qaldırılması üçün peşəkar psixoloji dəstək xidməti fasiləsiz fəaliyyət göstərərək həm tələbələr, həm də kollektiv üçün təhlükəsiz təhsil mühitini təmin edir. Məktəbdə “açıq qapı” siyasəti tətbiq olunur və hər bir tələbə, işçi istənilən problem, təklif və ya şikayətlə bağlı birbaşa məktəb rəhbərliyinə müraciət edə bilər. Bundan əlavə, tələbələrin maraqlarına uyğun olaraq müxtəlif dərnəklər, idman klubları, könüllü layihələr, mədəni tədbirlər təşkil olunur. Bütün bunlar tələbələrin məktəbə bağlılığını artırır, onların boş vaxtlarının səmərəli keçirməsinə şərait yaradır, liderlik, komanda işi, ünsiyyət və problemi həlletmə kimi bacarıqlarını inkişaf etdirir. Sözügedən məktəbin təcrübəsi göstərir ki, tələbələrin özlərini təhlükəsiz, dəyərli və qəbul edilmiş hiss etdiyi bir mühitdə təlim nəticələri əhəmiyyətli dərəcədə yaxşılaşır, davamiyyət artır, təhsildən ayrılma halları azalır, məzunların ümumi məmnuniyyəti yüksəlir.

Göygöl Peşə Məktəbinin təcrübəsi aydın şəkildə göstərir ki, regional peşə təhsili müəssisələrində keyfiyyətli təhsil prosesinin təmin edilməsi üçün idarəetmə mexanizmlərinin müasirləşdirilməsi, tədris metodlarının yeni yanaşmalarla zənginləşdirilməsi, rəqəmsal texnologiyaların inteqrasiyası, işəgötürənlərlə sistemli əməkdaşlıq, səmərəli qiymətləndirmə sisteminin qurulması, müəllim heyətinin fasiləsiz peşəkar inkişafının təmin edilməsi və təhlükəsiz, inklüziv təhsil mühitinin yaradılması zəruridir. Bu amillərin heç biri təkbaşına kifayət deyil, onların vahid sistem kimi inteqrasiyası və daimi təkmilləşdirilməsi vacibdir.

**Nəticə.** Ümid edirik ki, Azərbaycanın bölgələrində fəaliyyət göstərən digər peşə təhsili müəssisələri də Göygöl Peşə Məktəbinin təcrübəsindən bəhrələnərək öz yerli şəraitlərinə uyğunlaşdırılmış yeni yanaşmalar tətbiq edə bilərlər. Dövlət səviyyəsində isə bu cür uğurlu təcrübələrin yayılması, müəllimlərin ixtisasartırma proqramlarının gücləndirilməsi, peşə təhsili müəssisələrinin maddi-texniki bazasının yenilənməsi və dual təhsil sisteminin hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində dəstək verilməlidir. Yalnız bundan sonra peşə təhsili özünün əsas mis-siyasını əmək bazarının tələblərinə cavab verən, rəqabətqabiliyyətli, müasir bacarıqlara malik mütəxəssislər hazırlamağı tam şəkildə yerinə yetirə bilər.

## İstifadə edilmiş ədəbiyyat


1. “Peşə təhsilinin dövlət standartları” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 85 nömrəli Qərarı, 11 mart 2019.
2. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. “Müəllim” nəşriyyatı, Bakı, 2010.
3. Əsgərov R. Modul tipli kurikulumlar və peşə-ixtisas təhsili. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı, “Mütərcim” nəşriyyatı, 2015, 224 s.
4. İlk peşə-ixtisas təhsili: problemlər və perspektivlər. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. “Şahin-MB” MMC, Bakı, 2016, 250 s.
5. UNESCO. Technical and Vocational Education and Training for the 21st Century. Paris Publishing. 2021.